# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 332** **Bakı şəhəri, 27 iyul 2018-ci il**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1054-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 aprel tarixli 20 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 257; 2006, № 1, maddə 59; 2007, № 9, maddə 922; 2009, № 10, maddə 846; 2010, № 11, maddə 1039; 2011, № 5, maddə 442; 2013, № 6, maddə 760; 2015, № 9, maddə 1074, № 12, maddə 1595; 2016, № 3, maddə 612, № 6, maddə 1225, № 10, maddə 1728; 2017, № 9, maddə 1746, № 12 (II kitab), maddə 2541) ilə təsdiq edilmiş "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 11.1-ci bəndinin ikinci cümləsi dördüncü cümlə hesab edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"İdarə Heyətinin üzvləri və (və ya) Cəmiyyətin iştirakçıları daxili audit komitəsinin üzvü ola bilməzlər. Direktorlar Şurasının üzvləri daxili audit komitəsinin üzvü ola bilərlər.".

***Novruz MƏMMƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***